# İngilis dili dərsliklərində istifadə edilən oxu bacarığının əhəmiyyəti

**Günay Qədimova**
*Xəzər Universiteti*
**E-mail:** gunay.gadimova@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** dərs, oxu, bacarı, modellər, dərslik, tədris, mədəniyyət, tarix
**Ключевые слова:** урок, чтение, умение, модели, учебник, преподавание, культура, история
**Key words:** lesson, reading, ability, models, textbook, teaching, culture, history

Elm və texnikanın sürətli inkişafı nəticəsində kütləvi informasiya vasitələrinin yayılması, ölkələr arasında ticarət əlaqələrinin yüksəldilməsi və əlaqələrin intensivləşdirilməsi insanların başqa dövlətlər tərəfindən istifadə olunan xarici dilləri öyrənmələrinə səbəb olmuşdur. Hal-hazırda, bir və ya bir neçə dilləri bilmək akademik və ya peşə həyatında ön şərtlərdən biridir.

Dil, düşünmə və ünsiyyət vasitəsi olaraq insanın ünsiyyət qura bilmə və dildən istifadə edə bilmə bacarığını müəyyənləşdirir. Dil eyni zamanda anlatma və anlama vasitəsidir. Dilin təkmilləşərək zənginləşməsi insanların duyğu və düşüncələrinin inkişaf etməsinə və zənginləşməsinə kömək edir. Dil şifahi və yazılı olaraq ünsiyyət qurarkən istifadə etdiyimiz, doğularkən hazır şəkildə əldə etdiyimiz, düşünmə və düşündüklərimizi axtarma cizgisidir.

Dil tədrisi əsrlər boyu müxtəlif təhsil müəssisələrində və mühitlərdə həyata keçirilmişdir. İnsanların ana dilini bilməkləri ilə yanaşı, ən azı bir xarici dili öyrənmək yalnız müasir texnologiya əsrinin tələbi deyil, çox qədim tarixə əsaslanan bir mövzudur. Xüsusilə də böyük filosofların, alimlərin, şairlərin və ədəbiyyatçıların xarici dil bildiyini, bu günə qədər onlardan bizə çatan əsərlərdən başa düşürük.

İngilis dilinin tədrisində əsas bacarıqlar anlama bacarıqları (oxu və dinləmə), anlatma bacarıqları (danışma və yazma) olaraq iki hissəyə bölünür.

Anlatma bacarıqları şagirdlərin öz düşüncələrini və fikirlərini şifahi və ya yazılı şəkildə ifadə etməsidir. Anlama bacarıqları isə danışanı və ya yazılı bir ifadəni anlamaq qabiliyyəti ilə əlaqəlidir. Başqalarının hisslərini və düşüncələrini dinləyərək və ya oxuyaraq başa düşmək və anlamaq üçün olan bacarıqlar anlama bacarığının əsasını təşkil edir.

Oksford vurğulayır ki, dil öyrədilməsi müəllimin xüsusiyyətləri, öyrənənlər və müvafiq dillər ilə uyğunluq təşkil etməlidir. Rəngarəng bir öyrənmə üçün bütün bu mövzular inteqrasiya edilməli və müəllimlərin şagirdlərin ehtiyaclarını qarşılaya biləcəyi vasitələri olmalıdır. (Alderson, J.C. (1984). Reading in a foreign language: A reading problem or a language problem?)

Oxu bacarığı ən çox önəm verilməli olan bacarıqlardan və əsas məzmun xətlərindən biridir. Oxu bacarığı dinləmə, danışma və yazı bacarıqlarına da təsir edir. Oxuma-anlama bacarığı həm ən önəmli öyrənmə vasitəsi kimi, həm də digər bacarıqların qazanılmasına kömək edən ən mühüm bacarıqlardan biri hesab olunur. İngilis dilinin öyrədilməsində oxu bacarığının rolu digər bacarıqlardan bir addım daha öndədir. Şagirdlər mətnin içərisindəki sözlərin mənalarını, o sözlərin digər sözlərlə olan əlaqəsini oxu prosesi zamanı kəşf edirlər.

Şagirdlər xüsusilə ingilis dilində oxu təlimində bir çox problemlərlə qarşılaşırlar. Bu problemlərə nümunə olaraq oxuduqları mətni düzgün tərcümə edə bilməmək, yetərli lüğətlərin olmaması, qrammatik strukturların olmamasını göstərmək olar.

Leibnizə görə, dil, ağlın aynası hesab edilir. Oxu prosesi zamanı anlama baş verməsə, oxu bacarığının heç bir əhəmiyyəti olmaz. Xarici dilin səs quruluşunu dərk edən bir şəxs, bilmədiyi yüzlərlə sözdən ibarət olan bir mətni oxuya bilər, lakin oxuduğu mətnin mənasını anlaya bilməzsə oxu bacarığına yiyələnə bilməz. Oxu, kommunikasiya, qavrayış, inkişaf və öyrənmə prosesidir. (Özen M. Metinleri ekrandan okumanın anlam kurma üzerine etkisi. "The Journal of Academic Social Science Studies", 2014, № 24.)

Oxu təliminin məqsədi şagirdlərdə ətraf aləm haqqında düzgün biliklər formalaşdırılması, oxu dərslərinin keyfiyyətinin yüksəldilməsi, şagirdlərdə düzgün oxu vərdişlərinin inkişaf etdirilməsi, şagirdlərin nitqinin inkişaf etdirilməsi, ingilis dilinə aid olan lüğət ehtiyatının zənginləşdirməsi, fikirlərini həm şifahi həm də yazılı şəkildə ifadə etmək bacarığının formalaşdırılması, mətndəki əsas məzmunu tapa bilmək, sözlərin mənasını düşmək, oxunan materialı düzgün şəkildə qavramaqdır.

Oxu bacarığı aşılayan zaman qarşıya qoyulan hədəf davranışları bu cür sıralamaq olar:

- Oxu prinsipləri ilə əlaqəli bilik və bacarıqları artırmaq.
- Mətn səviyyəsini dəqiq başa düşmək üçün səsli və səssiz oxumaq bacarığı qazanmaq.
- Mətndəki sözlərin, sitatların, atalar sözlərinin, əlaqəli sözlərin, ifadələrin və terminlərin mənasını başa düşmək.
- Mətnin mövzusunu düzgün və dəqiq şəkildə başa düşmək, mətndəki əsas fikirləri ümumiləşdirmək, nəticə çıxarmaq, mətnlə əlaqəli fikrini yaza bilmək və ya sözlü şəkildə ifadə edə bilmək.

Oxuma prosesinin daha konkret başa düşülməsi üçün üç oxu modeli yaradılmışdır: bottom-up, top-down və interaktiv modellər.

Bottom-up model, "məktublar, morfemlər, hecalar, sözlər, ifadələr və qrammatik mənalar" kimi linqvistik siqnalların tanınmasına yönəlib:

- Şagirdlər ingilis dilinin fərqli morfemlər və orfoqrafik nümunələri arasındakı fərqi tapırlar.
- Müxtəlif ölçülü dil xətlərini qısa müddətli yaddaşda saxlayırlar.
- Qrammatik nitq hissələrini və qaydaları tanıyırlar.

Top-down model, mətni başa düşmək üçün zəka və təcrübənin birlikdə istifadə edilməsinə yönəlmişdir:

- Açıq konteksti olmayan mövzulardan nəticə çıxara bilmək
- Mətndəki linklər, əlaqələr, hadisələr, ideyalar və s. arasındakı əlaqələri və təsirləri müəyyənləşdirmək və yeni məlumatları ümumiləşdirmə və məlumat vermə nümunələri dəstəkləyən əlaqələri aşkar edə bilmək.
- Xüsusi istinadlar taparaq onları müvafiq kontekstə uyğun şərh edə bilmək
- Mətndəki sözlərin mənasını kontekstə uyğun qiymətləndirmək və mətnləri şərh edə bilmək üçün oxu strategiyalarının hazırlaya və istifadə edə bilmək

Alternativ olaraq, interaktiv model bottom-up və top-down modelləri birləşdirməyə yönəlmişdir. Grabe fikrinə əsasən, oxu aşağıdakıları tələb edən kompleks bir proses hesab edilə bilər:

1. Avtomatik tanıma qabiliyyəti: Qeyri-ixtiyari bir bacarıq olub, ideal olaraq mətni tanımaq üçün, xüsusilə də sözün tanınması üçün kiçik bir zehni proses tələb edir
2. Lüğət və struktur bilikləri: Dil strukturunu yaxşı başa düşmək və geniş lüğətləri tanımaq

3. Formal struktur bilikləri: Mətnlərin necə təşkil olunduğunu və məlumatların müxtəlif mətn janrlarına necə tətbiq edildiyini bilmək (məsələn, hesabat, məktub, povest)

4. Məzmun: Mətn haqqında olan məlumatları əvvəlcədən bilmək və mətndəki mədəniyyətlə əlaqəli olan məlumatları anlamaq

5. Sintez və qiymətləndirmə bacarığı / strategiyaları: Müxtəlif mənbələrdən məlumat oxumaq və müqayisə etmək, oxuduğu mətn ilə bağlı tənqidi düşünmək və məlumatın məqsədə uyğun və faydalı olduğunu müəyyən etmək bacarığı

6. Bilik və bacarıqların monitorinqi: Zehni proseslərdən xəbərdar olmaq və nə edəcəyinə dair düşünmə bacarığı və oxuyarkən bir strategiyanı istifadə etmək.

(Goodman, K. (1988). The reading process. In P. L. Carrell, J. Devine, & D. E. Eskey.)

**Məqalənin aktuallığı.** Təhsilin əsas mövzularından olan ingilis dilinin tədrisi, texnoloji inkişafın mədəni dəyişmədən öndə olduğu dövrümüzdə böyük əhəmiyyət daşımaqdadır. Tarix boyunca, insanlar xarici dilləri müxtəlif məqsədlərlə və müxtəlif formalarda öyrənirlər. Məhz bu baxımdan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ingilis dilinin tədrisində əsas bacarıqların təsnifatı verilməklə bərabər, həmçinin oxu bacarığı aşılayan zaman qarşıya qoyulan hədəf davranışları və oxuma prosesinin daha konkret başa düşülməsi üçün oxu modelləri də göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: Kövsər, 2011.

2. Özen M. Metinleri ekrandan okumanın anlam kurma üzerine etkisi // The Journal of Academic Social Science Studies, 2014, № 24

3. Roxanne F. Hudson, Paige C. Pullen, Holly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. “Reading and Writing Quarterly” journal, 2008.

4. Alderson, J.C. Reading in a foreign language: A reading problem or a language problem? 1984.

5. Goodman, K. The reading process. In P. L. Carrell, J. Devine, & D. E. Eskey. 1988.

**Г. Кадимова**

## Важность навыков чтения, используемых в учебниках английского языка

## Резюме

Одним из наиболее важных средств получения знаний в академической среде является чтение. Ученики могут получить много информации через письменные тексты и учебники. В этой статье дается обзор важности навыков чтения, используемых для академических целей в программах обучения английскому языку.

**G. Gadimova**

## The importance of reading skills used in English textbooks

## Summary

The Most important tool in acquiring knowledge in an academic setting is realized through reading. Most of the information students process every day is obtained from written information through course books and textbooks. This article, would give an information the importance of reading skill for academic purposes in language teaching programs.

**Redaksiyaya daxil olub:** 03.08.2019